**Çimnaz Kamran qızı İSMAYILBƏYLİ**
Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı
E-mail: cimnaz.ismayilbeyli@gmail.com,
ORCID NO: 0000-0003-4397-4086,

# SOSİAL İŞÇİLƏRİN VƏTƏNDAŞ CƏMİYYƏTİNDƏ İŞTİRAKÇILIĞINI ŞƏRTLƏNDİRƏN AMİLLƏRƏ SOSİAL-FƏLSƏFİ BAXIŞ

**Xülasə**

Bu tədqiqatda sosial işin təkamülü, əsas anlayışları və sosial işçilərin cəmiyyətin müxtəlif sahələrindəki rolları təhlil edilmişdir. Bununla da sosial işin cəmiyyətlə dərindən əlaqəli olduğu aydınlaşdırılmışdır. Bu kontekstdə sosial işçilərin öz fəaliyyət sahələrinin hüdudlarını dərk etmələri və fərdlərin yaşadığı problemlərə effektiv həll yolları inkişaf etdirmələrinin vacibliyi vurğulanır.

Semantik aspektdən baxıldığında "sosial" anlayışının Cefri Braket tərəfindən genişləndirildiyi və bu genişlənmə ilə sosial iş peşəsinin insanın ətraf mühiti, ailə quruluşu, iqtisadi vəziyyəti kimi müxtəlif faktorlarla əlaqələrini də əhatə etdiyi vurğulanır. Bu əhatəli məna sosial işin təkcə fərdin fərdi xüsusiyyətlərini deyil, həm də sosial, iqtisadi və mədəni kontekstdə qarşılıqlı əlaqələri əhatə etdiyi perspektivi ifadə edir.

Tədqiqat işinin giriş hissəsi sosial işin tarixi təkamülünü və sosial işçilərin vətəndaş cəmiyyəti ilə əlaqəsini anlamaq üçün əsas çərçivə təmin etməklə mövzunun əhəmiyyətini vurğulayır. Bu kontekstdə bu məqalə sosial işin vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqəsi vasitəsilə insanların sosial rifahının artırılmasına və həyat keyfiyyətinin yaxşılaşdırılmasına necə töhfə verdiyini anlamaq üçün mühüm məlumat mənbəyi olacaqdır.

Məqalədə sosial işçilərin əsas missiyalarına toxunulur. Onların həssas fərdlərin ehtiyaclarına diqqət yetirdikləri və ətraf mühit faktorlarını da nəzərə alaraq həll yolları təklif etməyə çalışdıqları bildirilir. Sosial işçilərin sosial ədaləti və sosial dəyişikliyi təşviq edən və mədəni müxtəlifliyə hörmət edən peşəkarlar olduğu vurğulanır.

Məqalədə sosial işçilərin vətəndaş cəmiyyətinin dinamikası ilə qarşılıqlı əlaqə quraraq ətraf mühit faktorlarını dərk etməyi və bu kontekstdə təsirli həll yolları inkişaf etdirməyi hədəflədikləri bildirilib. Eyni zamanda, sosial işçilərin vətəndaş cəmiyyəti ilə qurduqları əlaqənin onların peşə məsuliyyətləri və cəmiyyətin rifahına verdiyi töhfələr baxımından kritik əhəmiyyət kəsb etdiyi ifadə edilmişdir.

Yekun olaraq, bu tədqiqat sosial işin əsas dəyərlərinə, onun missiyasına və sosial işçilərin məsuliyyətlərinə toxunaraq vətəndaş cəmiyyətində iştirakını müəyyən edən amillərə sosial-fəlsəfi perspektivdən yanaşma irəli sürülür.

**Açar sözlər:** sosial iş, vətəndaş cəmiyyəti, QHT

**UOT:**80
**DOI:** https://doi.org/ 10.54414/PUYJ4785

## Giriş

Sosial işçilər cəmiyyətin rifahını yüksəltmək, fərdlərə dəstək olmaq kimi mühüm vəzifələr daşıyan peşəkar qruplardan birini təşkil edir. Bu mütəxəssislər fərdlərin, ailələrin və cəmiyyətin sosial problemlərinin həlli üçün effektiv həll yolları təqdim etməklə yanaşı, vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqədə də məsuliyyət daşıyırlar. Bu kontekstdə sosial işçilərin vətəndaş cəmiyyətində iştirakını başa düşmək və müəyyən etmək sosial işin effektivliyini artırmaq üçün kritik əhəmiyyət kəsb edir.

## Tədqiqatın məqsədi

Bu məqalə sosial işçilərin vətəndaş cəmiyyətində iştirakını şərtləndirən müxtəlif amilləri araşdırmaq məqsədi daşıyır. Sosial işçilərin vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqəsini

müəyyən edən bu amillər peşəkar, şəxsi və institusional səviyyədə müzakirə olunacaq və bu amillərin sosial işçilərin roluna necə təsir etdiyi izah ediləcək. Bundan əlavə, bu məqalədə qeyd olunan amillər, eləcə də sosial işçilərin vətəndaş cəmiyyətində daha effektiv iştirakını təmin etmək üçün təklif olunan strategiyalar müzakirə olunacaq. Bu strategiyalar peşəkar inkişaf, institusional dəstək və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq kimi müxtəlif sahələri əhatə edən sosial işçilərin vətəndaş cəmiyyətində iştirakını artırmaq üçün işlək həllər təqdim edəcək.

Bu məqalə sosial işçilərin vətəndaş cəmiyyətində iştirakını anlamaq və təkmilləşdirmək istəyən tədqiqatçılar, praktikantlar və pedaqoqlar üçün mühüm istinad mənbəyi olacaqdır. Sosial işçilərin vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqələrinin gücləndirilməsi, onların sosial dəyişiklik və inkişaf proseslərinə daha səmərəli töhfə vermək imkanı verməklə daha sağlam və daha ədalətli cəmiyyətin yaradılmasına mühüm töhfə verə bilər.

**Tədqiqatın məhdudiyyətləri**

*Göstərilən nümunələrdə məhdudiyyətlər:* Tədqiqat coğrafi olaraq bir əraziyə, yəni Azərbaycana və ya sosial işin xüsusi sahələrində çalışan qruplarına diqqət yetirə bilər. Bu, ümumiləşdirmələrin aparılmasında məhdudiyyətlərə səbəb ola bilər.

*Sorğular zamanı respondentlərin verdiyi cavablarda məhdudiyyətlər:* Sosial işçilərin rəyləri tədqiqatda iştirak edən şəxslərin subyektiv perspektivlərinə əsaslanacaq. Bu, tədqiqatın obyektivliyinə qismən təsir göstərə bilər.

**Sosial iş peşəsinin və sosial işçilərin rolu və əhəmiyyəti**

Akademik ədəbiyyatların əksəriyyətində sosial işin mənşəyi 1860-cı ildə İngiltərədə Charity Organisation Society (COS), yəni Xeyriyyə Təşkilat Cəmiyyətinin yaranması hesab olunur. Cəmiyyətin əsas məqsədi xeyriyyə işlərinin koordinasiyası idi. Ehtiyacı olan insanları, çox vaxt yoxsulları ziyarət edən yoldaşlıq ziyarətçiləri insanların probleminə fərdi yanaşaraq yardımın səviyyəsini müəyyən edirdi [4, s. 12].

1984-cü ilin iyul ayında, o zaman "NASW" yəni, Sosial İşçilərin Milli ***Assosiasiya***sının (ABŞ) prezidenti olan Robert Stewart, NASW xəbər redaksiyasında Sosial İş peşəsinin gələcəyi üçün olan konseptuallaşdırmanın aydın şəkildə ifadə edilməsinin çox vacib olduğunu bildirmişdi. Bəs Sosial İş nədir?

Semantik baxımdan araşdırıldıqda, sosial sözü dilimizə fransızca "social" sözündən keçib və ictimai mənasını verir. İngilis dilində isə bu söz orta əsrlərin sonlarına doğru meydana çıxmış və latıncadan tərcümədə müttəfiq mənasını verən "socialis" və dost mənasını verən "socius" sözlərindən əmələ gəlib. ABŞ-də xeyriyyəçilik ənənələrinin və sosial iş sahəsinin qabaqcıllarından olan Jeffrey Brackett 1900-cü illərdə sosial sözünə geniş mənalar yükləyirdi. Belə ki, o düşünürdü ki, "sosial" sözü insanın ailə üzvləri, dostları və ya aid olduğu etnomədəni qrup, məktəb, iş mühiti, yaşadığı mühit və cəmiyyət kimi çoxsaylı mühüm amillərlə əlaqəsini ehtiva edən əhatəli bir məna daşıyır [2, s. 464]. Daha sonra Brackett bu sözə İngilis dilindən tərcümədə "iş" mənasını verən "work" sözünü əlavə edir ki, bunun da bir səbəbi var idi. O, peşəkar təcrübəni varlı könüllülərin çox vaxt öz maraqlarını güdərək həyata keçirdiyi xeyriyyəçilik fəaliyyətindən fərqləndirmək üçün bunu etmişdi. Bununla o, inanırdı ki, bu zaman həmin fəaliyyət daha məsuliyyətli və intizamlı olacaq, sadəcə peşəkar şəxslər tərəfindən həyata keçiriləcək [9].

Bütün bu yanaşmalar sosial iş peşəsinin fəaliyyət sahəsinin sərhədlərini bilməyin vacibliyini vurğulayır və bu peşə üzvlərinin üzərinə böyük vəzifələr qoyur. İş sahəsinin hərtərəfli başa düşülməsi peşəkar xidmətin ən effektiv şəkildə yerinə yetirilməsinə imkan verir.

**Sosial işçilərin missiyaları**

Sosial iş peşəsinin əsas missiyası həssas, çətin həyat şəraitində və yoxsulluq içində yaşayan şəxslərin ehtiyaclarına xüsusi diqqət yetirməklə, insan rifahını təşviq etmək və bütün insanların əsas insani ehtiyaclarını ödəməyə kömək etməkdir. Sosial işin tarixi və müəyyənedici xüsusiyyəti ondan ibarətdir ki, peşə fərdi rifahı və sosial kontekstdə cəmiyyətin rifahını vurğulayır. Sosial işin təməli həyatda problemləri aşkar edən, təsir edən və həll edən ekoloji amillərə xüsusi diqqət yetirir [Sosial İşçilərin Milli Assosiasiyasının (NASW) Etik Kodeksi, s. 1]. Burada ekoloji amillər dedikdə, fərdlərin yaşadığı mühit və ya sosial kontekstdəki amillər nəzərdə tutulur. Bu amillərə ümumiyyətlə insanın ətraf mühiti, ailə quruluşu, iqtisadi vəziyyəti, mədəni qarşılıqlı əlaqələr və ictimai normalar kimi elementlər daxildir. Sosial iş, bu ətraf mühit faktorlarını dərk edərək, fərdlərin yaşadığı problemlərə təsirli həll yolları

tapmağı hədəfləyir. Bu kontekstdə ətraf mühit amilləri fərdin həyatına təsir edən xarici şərtləri təmsil edir. Bu yanaşmaya görə, insanın yaşadığı problemlər təkcə fərdi amillərdən qaynaqlanmır, eyni zamanda, sosial, iqtisadi və mədəni kontekst də böyük rol oynayır. Buna görə də, sosial iş mütəxəssisləri fərdləri yalnız öz xüsusiyyətləri ilə deyil, həm də yaşadıqları sosial mühit, əlaqələr, iqtisadi vəziyyət və mədəni amillərlə qiymətləndirirlər. Bu vahid yanaşma daha əhatəli və effektiv müdaxilələrin hazırlanmasına və fərdlərin həyatına müsbət təsir göstərməyə yönəlib [7, s. 16].

Sosial işçilər, eyni zamanda, sosial ədaləti və sosial dəyişikliyi təşviq edən peşə sahibləridirlər. Onlar mədəni və etnik müxtəlifliyə həssas yanaşır və ayrı-seçkiliyə, zülmə, yoxsulluğa və sosial ədalətsizliyin digər formalarına qarşı mübarizə aparırlar. Bu fəaliyyətlər birbaşa təcrübə, icma təşkilatçılığı, nəzarət, məsləhətləşmə, idarəetmə, vəkillik, sosial və siyasi fəaliyyət, siyasətin işlənib hazırlanması və həyata keçirilməsi, təhsil, tədqiqat və qiymətləndirmə formasında ola bilər. Sosial işçilər insanların öz ehtiyaclarını ödəmək qabiliyyətini artırmağa çalışırlar. Sosial işçilər həmçinin təşkilatların, icmaların və digər sosial institutların fərdin ehtiyaclarına və sosial problemlərinə cavab verməsini təşviq etməyə çalışırlar.

Sosial iş peşəsinin missiyası bir sıra əsas dəyərlərdən qaynaqlanır. Peşə tarixi boyunca sosial işçilər tərəfindən qəbul edilən bu əsas dəyərlər sosial işin unikal məqsədi və perspektivinin əsasını təşkil edir.

- Xidmət
- Sosial ədalət
- Şəxsin ləyaqəti və dəyəri
- İnsan münasibətlərinin əhəmiyyəti
- Dürüstlük
- Səriştəlilik [Sosial İşçilərin Milli Assosiasiyasının (NASW) Etik Kodeksi, s. 1].

Yuxarıdakı paraqraflarda qeyd edildiyi kimi sosial işçilər sosial problemlərə həssaslıqla yanaşaraq fərdlərin və icmaların rifahının yaxşılaşdırılmasında mühüm rol oynayırlar. Bu kontekstdə sosial işçilərin səmərəli fəaliyyət göstərməsi və sosial dəyişiklikləri dəstəkləməsi üçün vətəndaş cəmiyyətində iştirakı böyük əhəmiyyət kəsb edir. Belə ki, vətəndaş cəmiyyəti sosial işçilərə geniş perspektiv təklif edir və sosial dəyişikliyi dəstəkləyən güclü mühit yaradır. Bu əməkdaşlıq sosial layihələrin daha effektiv və əhatəli olmasına imkan verir, çünki vətəndaş cəmiyyəti daxilində müxtəlif təşkilatlar sosial problemlərə müxtəlif perspektiv və təcrübə sahələri ilə daha əhatəli yanaşa bilirlər. Onlara bu qədər geniş imkanlar yaradan vətəndaş cəmiyyəti anlayışı sosial işçilər və sosial sahədə çalışan digər mütəxəssislər üçün nə deməkdir və onun müxtəlif elementləri sosial iş müdaxilələrinin və sosial dəyişikliklərin effektivliyi üçün necə əsas yaradır? Bu məqamda vətəndaş cəmiyyətinin təklif etdiyi geniş imkanları başa düşmək üçün məqalənin növbəti bölməsində vətəndaş cəmiyyəti konsepsiyasının tərifi və onun sosial işçilər üçün mənası müzakirə ediləcək.

**Vətəndaş cəmiyyəti nədir?**

Vətəndaş cəmiyyəti konsepsiyası son illərdə inkişaf tədqiqatlarında getdikcə daha çox əhəmiyyət kəsb edən bir konsepsiyadır. Əksər alimlər, sosial fəallar və digər mütəxəssislər vətəndaş cəmiyyətinə belə tərif verir: "Vətəndaş cəmiyyəti müxtəlif maraq qruplarının və ictimai təşkilatların bir araya gəlməsi ilə formalaşan bir strukturdur. Bu struktur ayrı-ayrı şəxslərə müəyyən qədər muxtariyyət verərək dövlətlərin avtoritar və hegemon meyillərinə qarşı müdafiəni təmin edəcək qədər güclüdür" [3, s. 238]. Vətəndaş cəmiyyəti bu sahədə fəaliyyət göstərən assosiasiyalar, fondlar, liqalar, birliklər və qeyri-hökumət təşkilatları kimi hər cür təşkilatı əhatə edən qlobal və siyasi bir anlayışdır. Həm milli, həm də Avropa vətəndaş cəmiyyətini daha yaxşı başa düşmək üçün vətəndaş cəmiyyətinin elementlərini onların fərqli xüsusiyyətləri ilə birlikdə təhlil etmək lazımdır. Struktur bütövlük və dinamik inkişafı təmin edən elementlərin müxtəlifliyini və qarşılıqlı təsirini əks etdirən cəmiyyətin daxili strukturunu təmsil edir [10].

Vətəndaş cəmiyyətinin inkişafına nail olmaq üçün ədaləti bərqərar etmək, qanunun aliliyini qorumaq, insanların mənəviyyatını, məlumatlılığını yüksəltmək əsas məsələlərdən hesab olunur [8, s. 20]

Beləliklə, vətəndaş cəmiyyəti təşkilatları:

a) Dövlət və iqtisadi təşkilatlardan müstəqildir;

b) Mənfəət üçün fəaliyyət göstərmirlər;

c) Müəyyən edilmiş məqsədlərə uyğun olaraq "ictimai maraqlara" xidmət edir;

d) Dövlətin idarəetmə funksiyasına qarışmır, lakin vətəndaşların müstəqil siyasi iştirakçılığında maraqlıdır [9].

Sosial işçilərin vətəndaş cəmiyyətində iştirakçılığını şərtləndirən amillərə toxunmadan öncə bu iki sosial konstruksiyanın ortaq cəhətlərinə və ortaq dəyərlərinə nəzər salmaq lazımdır. Belə ki, sosial işçilər başqalarına xidməti şəxsi maraqlardan daha üstün tuturlar. Bu peşə sahibləri öz bilik, dəyər və bacarıqlarını ehtiyacı olan insanlara kömək etmək və sosial problemləri həll etmək üçün istifadə edirlər. Onlar yüksək maliyyə gəliri (pro bono xidmət[1]) gözləmədən öz peşəkar bacarıqlarının bir qismini könüllü olaraq istifadə edərək işlərini yerinə yetirirlər [6, s. 11]. Vətəndaş cəmiyyəti təşkilatları da həm vətəndaşlar, həm də hökumət üçün mühüm informasiya mənbəyidir ki, Sosial İşçilərin Milli Assosiasiyasının etik kodeksində sosial işçilərin də məlumatverici funksiyası qeyd edilmişdir (Milli Sosial İşçilər Assosiasiyası (NASW) Etik Kodeksi). Bu təşkilatlar xüsusilə yoxsullara və sosial məhrumiyyət yaşayan həssas əhali qrupuna xidmət göstərirlər. Onlar vətəndaşların hüquqlarını müdafiə edir və sosial norma və davranışları müsbət yöndə dəyişdirmək üçün çalışırlar [11]. Eyni zamanda, sosial iş peşəsi də evsizlər, miqrantlar, əlilliyi olan şəxslər və qocalar kimi həssas əhali kateqoriyasına daxil olan şəxslərə xidmət göstərir [1, s. 287]. Beləliklə, bütün bunlardan belə bir nəticə çıxarmaq olar ki, vətəndaş cəmiyyəti və sosial işin əsas diqqəti cəmiyyətin rifahının yaxşılaşdırılmasına yönəlir və həmrəylik, könüllülük və sosial ədalət prinsiplərini vurğulayır. Hər ikisi insan yönümlü yanaşmaları ilə sosial problemlərə həll yolu tapmaq məqsədi ilə birləşir və sosial disbalanslara həssas yanaşır.

**Sosial işçilər vətəndaş cəmiyyətinə nə kimi töhfə verə bilər?**

Sosial işçilər vətəndaş cəmiyyətinə verə biləcəyi töhfələr fərdlərin və icmaların həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş sosial iş prinsiplərinə əsaslanır. Sosial işçilər cəmiyyətin ehtiyaclarına həssas yanaşaraq qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edərək sosial problemlərə təsirli həll yolları istehsal edə bilərlər. Bu əməkdaşlıq təhsil proqramları yaratmaq, imkansız qruplara dəstək vermək və ya cəmiyyətin üzləşdiyi problemlər barədə məlumatlılığı artırmaqla baş verə bilər. Bundan əlavə, vətəndaş cəmiyyəti daxilində liderlik rollarını öz üzərinə götürməklə sosial işçilər sosial ədaləti dəstəkləyən və sosial dəyişikliyi təşviq edən siyasətlərin inkişafına töhfə verə bilərlər. Bu yolla sosial işçilər vətəndaş cəmiyyətinin gücləndirilməsində və cəmiyyətin daha sağlam, daha ədalətli və kooperativ quruluşa nail olunmasında mühüm rol oynayırlar [5, s. 7].

Tədqiqatda iştirak edən sosial işçilərin əksəriyyəti qeyri-hökumət təşkilatları (QHT) ilə əməkdaşlığın cəmiyyətlə daha sıx əlaqələrin qurulması və onların ehtiyaclarının daha yaxşı başa düşülməsi baxımından vacib olduğunu düşünür. Lakin iştirakçıların əhəmiyyətli hissəsi QHT-lərin maliyyə imkanlarının azlığı və məhdud resursları səbəbindən bu əməkdaşlığa müsbət yanaşmır. Bu, sosial işçilər arasında QHT-lərlə əməkdaşlıq potensialını qiymətləndirərkən maliyyə amillərinin nəzərə alınması zərurətini vurğulayır.

**Nəticə**

Bu gün cəmiyyətin rifahının yüksəldilməsi və sosial problemlərin səmərəli həllinin təmin edilməsində sosial işçilərin vətəndaş cəmiyyətində iştirakı kritik əhəmiyyət kəsb edir. Bu məqalədə sosial işçilərin vətəndaş cəmiyyətində iştirakını şərtləndirən amillərin sosial-fəlsəfi təhlili verilmişdir. Sosial işçilərin peşə, şəxsi və institusional səviyyədə vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqəsinin dərk edilməsi sosial işin effektivliyinin artırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Tədqiqatın məhdudiyyətləri nümunə götürmə və sorğuda iştirak edən respondent cavabları ilə bağlı bəzi məhdudiyyətləri ortaya qoyur. Ona görə də nəzərə almaq lazımdır ki, nəticələr ümumiləşdirmədə məhdudiyyətlər yarada bilər. Bununla belə, bu tədqiqat sosial işçilərin vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqəsini yaxşılaşdırmaq istəyən tədqiqatçılar, pedaqoqlar, sosial işçilər və vətəndaş cəmiyyətində çalışan şəxslər üçün mühüm istinad mənbəyi olacaqdır.

Sosial işçilər vətəndaş cəmiyyətində daha effektiv iştirak etməklə sosial problemlərə daha əhatəli və vahid həllər təklif edə bilərlər. Bu kontekstdə vətəndaş cəmiyyətinin təqdim etdiyi geniş imkanlar sosial işçilərə sosial problemlərə daha dərindən və əhatəli prizmadan yanaşmaq imkanı verir. Bu əməkdaşlıq daha sağlam, daha ədalətli və kooperativ cəmiyyətin yaradılmasına mühüm töhfələr verir.

[1] ödəniş tələb etmədən (Mənbə: "Cambridge" lüğəti)

Nəticə etibarilə, sosial işçilərin vətəndaş cəmiyyətində iştirakını artırmaq üçün peşəkar inkişaf, institusional dəstək və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq kimi müxtəlif strategiyaların tətbiqi vacibdir. Bu strategiyalar sosial işçilərin vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqəsini gücləndirəcək və onlara sosial dəyişikliyə daha effektiv töhfə verməyə imkan verəcək.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Engelbrecht, L.K. Introduction to social work / L.Engelbrecht. - Wellington: Lanzo, -1999. -131p.
2. Selcik, O., Güzel, B. Sosyal hizmet mesleğinin çalışma alanı ve sosyal hizmet uygulamasının türkiye ölçeğinde değerlendirilmesi // : Uluslararası Sosyal Araştırmalar Dergisi, 0, -2016. №46, -s.461-469
3. https://www.pearsonhighered.com/assets/samplechapter/0/2/0/5/0205838758.pdf Giriş tarixi: 22.01.2024
4. Teater, B. Social Work Theories: [second edition] / B.Teater. - Elsevier Science Ltd, -2015.- 24p.
5. Teater, B. Social Work Theories: [second edition] / B.Teater. - Elsevier Science Ltd, -2015.- 24p.
6. Aswin, A.A. The Concept of Civil Society and Its Significance on Development Practice // Transformasi Global (JTG), Vol. 3 No. 2 (2016),-p.238-248
7. https://ibn.idsi.md/sites/default/files/imag_file/199_207_Basic%20elements%20of%20civil%20society%20system.pdf Giriş tarixi: 22.01.2024
8. Ziyaeva, O., Elements of civil society in the history of national heritage // East European Scientific Journal #4(68), 2021, -p.18-20
9. https://www.pearsonhighered.com/assets/samplechapter/0/2/0/5/0205838758.pdf Giriş tarixi: 22.01.2024
10. Morley, D.G. An Introduction to Social Problems, Social Welfare Organizations, and the Profession of Social Work: [second edition, chapter I] / D.Morley. - SAGE Publications, Inc, -2010, -20p.
11. https://www.brookings.edu/articles/civil-society-an-essential-ingredient-of-development/#:~:text=Civil%20society%20organizations%20play%20multiple,private%20sector%2C%20and%20other%20institutions. Giriş tarixi: 22.01.2024
12. Doğan, B.K., Pekasıl, A.N. COVID-19 Pandemisi Bağlamında Evsizler, Mevsimlik Tarım İşçileri, Mülteci, Şartlı Mülteci ve Geçici Koruma Kapsamında Bulunan Suriyelilerin Sorunları Üzerine Bir Değerlendirme // : Toplum ve Sosyal Hizmet, Cilt 32, Sayı 1, Ocak 2021; s. 275-292
13. Jaysawal1, N. Civil Society, Democratic Space, and Social Work // SAGE Open, October-December 2013: 1-12

**Чимназ Кямран кызы ИСМАИЛБЕЙЛИ**

# СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ ВЗГЛЯД НА ФАКТОРЫ, ОПРЕДЕЛЯЮЩИЕ УЧАСТИЕ СОЦИАЛЬНЫХ РАБОТНИКОВ В ГРАЖДАНСКОМ ОБЩЕСТВЕ

## Резюме

В данном исследовании была проанализирована эволюция социальной работы, ее основные концепции и роли социальных работников в различных сферах жизни общества. При этом выяснилось, что социальная работа глубоко связана с обществом. В этом контексте подчеркивается важность того, чтобы социальные работники понимали границы своей сферы деятельности и разрабатывали эффективные решения проблем, с которыми сталкиваются люди.

С семантической точки зрения подчеркивается, что понятие «социальное» было расширено Джеффри Брэкеттом, и вместе с этим расширением профессия социального работника включает также отношения с различными факторами, такими как окружение человека,

структура семьи и экономический статус. . Это инклюзивное значение относится к точке зрения, согласно которой социальная работа охватывает не только индивидуальные характеристики человека, но также взаимодействия в социальном, экономическом и культурном контекстах.

Введение к исследовательской работе подчеркивает важность этой темы, предоставляя основу для понимания исторической эволюции социальной работы и отношений социальных работников с гражданским обществом. В этом контексте данная статья станет важным источником информации для понимания того, как социальная работа способствует улучшению социального благополучия и качества жизни людей посредством ее взаимодействия с гражданским обществом.

В статье рассматриваются основные миссии социальных работников. Говорят, что они сосредотачивают внимание на потребностях уязвимых людей и пытаются предложить решения, которые также учитывают факторы окружающей среды. Социальные работники рассматриваются как профессионалы, которые способствуют социальной справедливости и социальным изменениям и уважают культурное разнообразие.

В статье говорится, что социальные работники стремятся понять факторы окружающей среды, взаимодействуя с динамикой гражданского общества, и разработать эффективные решения в этом контексте. В то же время было заявлено, что отношения, устанавливаемые социальными работниками с гражданским обществом, имеют решающее значение с точки зрения их профессиональных обязанностей и вклада в благосостояние общества.

В заключение, в этом исследовании рассматриваются основные ценности социальной работы, ее миссия и обязанности социальных работников, а также предлагается социально-философский подход к факторам, определяющим участие в гражданском обществе.

**Ключевые слова:** социальная работа, гражданское общество, НПО.

**Chimnaz Kamran ISMAILBAYLI**

## SOCIAL-PHILOSOPHICAL VIEW OF FACTORS DETERMINING THE PARTICIPATION OF SOCIAL WORKERS IN CIVIL SOCIETY

### Summary

In this study, the evolution of social work, its basic concepts and the roles of social workers in different areas of society were analyzed. With this, it was clarified that social work is deeply related to society. In this context, it is emphasized the importance of social workers to understand the limits of their field of activity and to develop effective solutions to the problems experienced by individuals.

From the semantic point of view, it is emphasized that the concept of "social" was expanded by Geoffrey Brackett, and with this expansion, the social work profession also includes relationships with various factors such as a person's environment, family structure, and economic status. This inclusive meaning refers to the perspective that social work encompasses not only the individual characteristics of the individual, but also the interactions in social, economic and cultural contexts.

The introduction to the research paper highlights the importance of the topic by providing a framework for understanding the historical evolution of social work and the relationship of social workers to civil society. In this context, this article will be an important source of information to understand how social work contributes to the improvement of people's social well-being and quality of life through its interaction with civil society.

The main missions of social workers are touched upon in the article. They are said to focus on the needs of vulnerable individuals and try to offer solutions that also take environmental factors into account. It emphasizes that social workers are professionals who promote social justice and social change and respect cultural diversity.

The article states that social workers aim to understand environmental factors by interacting with the dynamics of civil society and develop effective solutions in this context. At the same time, it was stated that the relationship established by social workers with civil society is of critical importance in terms of their professional responsibilities and contributions to the welfare of society.

In conclusion, this study addresses the core values of social work, its mission, and the responsibilities of social workers, and provides a socio-philosophical approach to the factors that determine participation in civil society.

**Keywords:** social work, civil society, NGO

**Daxil olub:** 12.11.2023